Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
Bakı Ofisi

**TƏHLÜKƏSIZLIK VƏ ƏTRAF MÜHIT ÜZRƏ VƏTƏNDAŞ FƏALIYYƏTI**

# KONSEPSIYA SƏNƏDLƏRİNİN QƏBULUNA MÜRACİƏT ETMƏ QAYDALARI No. ITB/AZE/002/2012

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı Ofisi Təhlükəsizlik və Ətraf Mühit üzrə Vətəndaş Fəaliyyəti (TƏMVF) Kiçik Qrantlar Proqramı çərçivəsində Konsepsiya Sənədlərinin Qəbulununun 4-cü raundunu elan edir. TƏMVF Proqramı aşağıda qeyd edilən ətraf mühit və təhlükəsizlik mövzularından hər hansı birinə müraciət edən vətəndaş cəmiyyəti layihələrinə maliyyə vəsaiti ayırır: təbii ehtiyatların dayanıqlı idarə olunması; torpaqların deqradasiyaya uğramasının qarşısının alınması; təbii və texnogen fəlakətlər; zərərli tullantıların və kimyəvi maddələrin idarə olunması; dağ-mədən hasilatı; ekoloji cəhətdən dayanıqlı nəqliyyat; iqlim dəyişikliyi; enerji.

## Sənədlərin qəbulunun son tarixi

Sənədlər paketi üzərində "No. ITB/AZE/002/2012 – TƏMVF üçün Konsepsiya Sənədi – 28 fevral 2012-ci il, 12:00-dan (yerli vaxt) əvvəl açmayın" yazılmış və möhürlənmiş zərfdə 28 fevral 2012-ci il, saat 12:00-dan (yerli vaxt) gec olmamaqla təqdim edilməlidir. Elektron poçt və ya faksla göndərilmiş sənədlər paketi qəbul edilməyəcəkdir. Sənədlər paketi Azərbaycan dilində təqdim edilməlidir.

## Müraciət etmək hüququ olan təşkilatlar

Ölkədə fəaliyyət göstərən geniş spektrli Vətəndaş Cəmiyyəti Təşkilatları (VCT) TƏMVF Kiçik Qrantlar Proqramında iştirak etmək hüququna malikdirlər.

## Əlavə məlumat

Konsepsiya Sənədlərinin Qəbulu ilə bağlı sənədlər ATƏT-in internet saytından (http://www.osce.org/baku/84066) əldə edilə bilər. Sual və ya sorğularınızla bağlı ATƏT-in Bakı Ofisinin İqtisadi və Ətraf Mühit Şöbəsinin əməkdaşı Zəhra Əhmədova ilə zahra.ahmadova@osce.org elektron ünvanı vasitəsilə əlaqə saxlaya bilərsiniz.

Fevral 2012-ci il

Bakı, Azərbaycan

## Mündəricat


Təhlükəsizlik və Ətraf Mühit üzrə Vətəndaş Fəaliyyəti (TƏMVF) Kiçik Qrantlar Proqramı ... 2

İcmal 2
TƏMVF-Azərbaycan haqqında ... 2

Kiçik qrantlar üçün mövzular ... 3

Kiçik qrantlar üçün prioritet mövzular ... 3
Kəsişən mövzular ... 3

Proqramda iştirak etməklə bağlı tələblər ... 4

Müraciət etmək hüququ olan VCT-lər ... 4
Sənədlər Paketinə olan tələblər ... 4

Sənədlər Paketi ... 5

(1) Konsepsiya Sənədi ... 5
(2) Büdcə ... 5
(3) Uyğunluq Şəhadətnaməsi ... 6
(4-6) Əlavə sənədlər ... 6

Sənədlər Paketinin təqdim edilməsi qaydası ... 6

Sənədlər Paketinə baxılması və seçim prosesi ... 6

Sənədlər Paketlərinin tələblərə uyğunluğunun daxili yoxlanılması ... 6
Tələblərə cavab verən Sənədlər Paketlərinin qiymətləndirilməsi ... 6
Tam layihə təlkiflərinin hazırlanması və seçimi ... 7

Konsepsiya sənədlərinin və layihə təkliflərinin hazırlanmasına texniki yardım ... 7

Kontrol siyahı ... 7

# Təhlükəsizlik və Ətraf Mühit üzrə Vətəndaş Fəaliyyəti (TƏMVF) Kiçik Qrantlar Proqramı

## İcmal

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Avropa, Mərkəzi Asiya və Şimali Amerikanın 56 ölkəsinin üzv olduğu regional təhlükəsizlik təşkilatıdır. Təhlükəsizlik ATƏT-in mandatının əsasını təşkil edir.

Mərkəzi Asiya, Cənub-Şərqi Avropa, Cənubi Qafqaz və Şərqi Avropa regionlarını əhatə edən Ətraf Mühit və Təhlükəsizlik Təşəbbüsündə (ENVSEC) iştirak etməklə ATƏT milli sərhədlər daxilində və xaricində icmalar üçün risklər yarada biləcək müxtəlif çeşidli ətraf mühit problemləri ilə məşğul olur. TƏMVF Proqrami ENVSEC-in Cənubi Qafqaz üçün Fəaliyyət Proqramının tərkib hissəsi kimi həyata keçirilir. ENVSEC ATƏT, BMT-nin İnkişaf Proqramı, BMT-nin Ətraf Mühit Proqramı, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının, Mərkəzi və Şərqi Avropa üçün Regional Ekoloji Mərkəzinin və müxbir üzv kimi NATO arasında tərəfdaşlıqdır.

Öz mandatı çərçivəsində ATƏT təhlükəsizliyin üç aspekti, yəni hərbi-siyasi, iqtisadi və ekoloji, insan hüquqları aspektləri ilə kəsişən sahələrdə Vətəndaş Cəmiyyəti Təşkilatları (VCT) ilə həm layihələrin icrası, həm də siyasətin formalaşdırılması sahələrində artan qarşılıqlı əməkdaşlığa malikdir. "Ətraf mühit və təhlükəsizlik" ilə əlaqədar olan məsələlər VCT-lər ilə strateji, genişmiqyaslı tərəfdaşlığın yaradılması, eləcə də VCT-lərin hökumət orqanları, elmi ictimaiyyət, biznes icması və donorlar ilə tərəfdaşlığına yardım edilməsi yönündə ATƏT üçün əhəmiyyətli giriş nöqtəsi təklif edir.

Bununla bağlı olaraq, ATƏT kiçik qrantlar proqramı kimi nəzərdə tutulmuş TƏMVF – Təhlükəsizlik və Ətraf Mühit üzrə Vətəndaş Fəaliyyəti proqramını hazırlamış və icrasına başlamışdır.

TƏMVF proqramının əsas məqsədi ətraf mühit və təhlükəsizliklə bağlı problemlərin həllində VCT-lərin başlıca olaraq hökumətə, o cümlədən digər aidiyyatı olan tərəflərə güclü tərəfdaş olması üçün əlverişli mühitin yaradılmasıdır. Bu məqsədə əsasən ətraf mühit və təhlükəsizlik arasında əlaqələr haqqında məlumatlandırıcı proqramlar, bu əlaqələr üzrə VCT-lərin bilik və bacarıqlarının artırılması və belə əlaqələri nümayiş etdirən layihələr üçün qrantların ayrılması vasitəsi ilə nail olunması nəzərdə tutulmuşdur.

## TƏMVF-Azərbaycan haqqında

ATƏT-in Bakı Ofisi TƏMVF Proqramını 2009-cu ilin oktyabr ayından etibarən Statoil, Avstriya, ABŞ, Norveç hökumətlərinin və ENVSEC Təşəbbüsü vasitəsilə Kanada və Finlandiya hökumətlərinin maliyyə dəstəyi ilə icra edir. Proqram ətraf mühit və təhlükəsizlik sahəsində prioritet mövzuları ("Kiçik qrantlar üçün prioritet mövzular", səh. 3) əhatə edən vətəndaş cəmiyyəti fəaliyyətləri üçün kiçik qrantlar ayırır.

TƏMVF proqramının əsas iştirakçıları Vətəndaş Cəmiyyəti Təşkilatlarıdır. Vətəndaş Cəmiyyəti Təşkilatları (VCT) dedikdə, mənfəət əldə etmək və ya hakimiyyət güdmək məqsədi daşımayan qeyri-dövlət təşkilatları nəzərdə tutulur. Buraya qeyri-hökumət təşkilatları (QHT), icma əsaslı təşkilatlar (İƏT), jurnalist birlikləri, həmkarlar ittifaqları və ticarət assosiasiyaları daxil olmaqla, lakin onlarla məhdudlaşdırılmadan, vətəndaş cəmiyyətinin geniş spektrli rəsmi və qeyri-rəsmi təşkilatları aiddir.

Təqdim edilən Sənədlər Paketinin qiymətləndirilməsi və seçimini TƏMVF Milli Seçim Şurası (MSŞ) həyata keçirir. Hal-hazırda, Şurada Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP), ATƏT-in Bakı Ofisi və vətəndaş cəmiyyəti təşkilatı nümayəndələri təmsil olunmuşdur.

**TƏMVF-Azərbaycan proqramının ayırdığı qrantların maksimum dəyəri 15,000 AZN təşkil edir.**

Proqramda iştirak etmək hüququ olan VCT-lar tərəfindən təqdim edilən kosepsiya sənədlərinin sayı baxımından heç bir məhdudiyyət qoyulmur. Buna baxmayaraq, təqdim edilən layihələrin sayından asılı olmayaraq hər bir VCT TƏMVF proqramının hər bir layihə seçimi dövrəsində yalnız bir spesifik layihə üçün qrant ala bilər.

# Kiçik qrantlar üçün mövzular

**Kiçik qrantlar üçün prioritet mövzular**
TƏMVF-Azərbaycan proqramı çərçivəsində təqdim edilən konsepsiya sənədləri aşağıda göstərilən prioritet mövzulardan birini spesifik olaraq hədəfə almalı və bu mövzu ilə ətraf mühit və təhlükəsizlik məsələləri arasındakı əlaqələri aydın şəkildə nümayiş etdirilməlidir:

- Təbii ehtiyatların dayanıqlı idarə olunması (su ehtiyatlarının inteqrasiya olunmuş idarə olunması, su mənbələrinin və suyun keyfiyyətinin mühafizə olunması, çay hövzələrinin idarə olunması sahəsində əməkdaşlığın möhkəmləndirilməsi, dağların eko-sistemlərinin dayanıqlı inkişaf etdirilməsi, bio-müxtəlifliyin mühafizəsi, meşə ehtiyatlarının inkişaf etdirilməsi/yeni meşə sahələrinin yaradılması və sair daxil olmaqla)

- Torpaqların deqradasiyaya uğramasının qarşısının alınması (torpağın idarə olunmasının təkmilləşdirilməsi, səhralaşma və torpaqların deqradasiyasına nəzarət, qarşısının alınması və prosesin geri döndərilməsi, torpağın çirklənməsi ilə mübarizə, şoranlaşma ilə mübarizə, dayanıqlı kənd təsərrüfatı təcrübələrinin təşviq olunması, torpağın münbitliyinin idarə olunmasının təkmilləşdirilməsi və sair daxil olmaqla)

- Təbii və texnogen fəlakətlər (zəlzələ ilə bağlı ətraf mühit riskləri, fəlakətlərin miqrasiya təzyiqlərinə potensial təsiri, daşqın riskinin azaldılması, icma səviyyəsində fəlakətlərə qarşı hazırlığın gücləndirilməsi, fəlakətlər ilə əlaqədar olan sağlamlıq risklərinin azaldılması və sair daxil olmaqla)

- Zərərli tullantıların və kimyəvi maddələrin idarə olunması (sərhədlər-arası tullantıların risklərinin azıdılması, ağır metallarla çirklənmənin azaldılması, zərərli tullantılar və kimyəvi maddələrin işlənməsi/ ləğv edilməsi, neft hasilatı/sızmalar və toksik tullantılar səbəbindən torpağın çirklənməsinin azaldılması və sair daxil olmaqla)

- Dağ-mədən hasilatı (dağ-mədən hasilatının torpaq, su və bitki aləminin, eləcə də havanın çirklənməsi kimi ətraf mühitə mənfi təsirlərinin azaldılması və sair daxil olmaqla)

- İqlim dəyişikliyi (iqlim dəyişikliyi üzrə təcrübə və səriştə mübadiləsini dəstəkləyən tərəfdaşlıqların gücləndirilməsi, ictimai sayıqlığın artırılması, karbon qazı tullantılarının azaldılması proqramlarının təqdir edilməsi, bazar mexanizmləri və siyasətlə bağlı olan iqlim dəyişikliyi sahəsində yerli tədbirlər və sair daxil olmaqla)

- Enerji (dayanıqlı enerji məqsədlərinə nail olunması üçün enerji səmərəliliyinin təkmilləşdirilməsi, enerji üzrə siyasətlərin inteqrasiya olunması, diqqətin alternativ bərpa olunan enerji ehtiyatlarına yönəldilməsi, icma səviyyəsində enerji baxımından səmərəli texnologiyaların və təcrübələrin nümayiş etdirilməsi və sair daxil olmaqla)

- Ekoloji cəhətdən dayanıqlı nəqliyyat (ölkələr-arası və ölkə-daxili nəqliyyatın təhlükəsizliyi məsələlərinin ünvanlanması, velosiped yolları, piyada səkiləri kimi ətraf mühit baxımından dayanıqlı nəqliyyat vasitələrinin təşviq olunması və sair daxil olmaqla)

## Kəsişən mövzular
Müvafiq olarsa, konsepsual sənədlər əhətə etdiyi prioritet mövzu çərçivəsində kəsişən mövzuları ünvanlamalıdır. Qadınların və gənclərin rolu və iştirakı ilə bağlı kəsişən mövzulara xüsusi diqqət verilməlidir.

Kəsişən mövzulara aşağıdakılar daxildir:

- Ətraf mühitin idarə olunmasına dəstək kəsişən mövzusu həmçinin aşağıdakı yollarla ünvanlana bilər: maraqlı tərəflər arasında prioritet mövzular üzrə dialoqun təkmilləşdirilməsinə çalışmaq, uzunmüddətli institusional və siyasət dəyişikliklərinə yol açan mərhələli təkmilləşdirmələrin hədəfə alınması, fəaliyyətin Aarhus Mərkəzləri ilə əlaqələndirilməsi, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının Ətraf mühit Konvensiyalarının icrasının stimullaşdırılması, gərginliyin ekoloji mənbələrinin ünvanlanmasına yönəlik əməkdaşlığın gücləndirilməsi üçün novator alət və yanaşmaların təqdim olunması və sair.

- Ətraf mühit təhlükəsizliyinin sosial aspektləri kəsişən mövzusu həmçinin aşağıdakı yollarla ünvanlana bilər: ətraf mühit təhlükəsizliyinin miqrasiyaya potensial təsirinin nəzərə alınması, ətraf mühit risklərinin müvafiq sahələrdə əməkdaşlığa çevrilməsinə çalışan təşəbbüslərdə iştirak, ətraf mühit təhlükəsizliyinin sosial aspektlərinin işıqlandırılması üçün novator alət və yanaşmaların tətbiq olunması və sair.

- Qadınların rolu və iştirakı[1] kəsişən mövzusu həmçinin aşağıdakı yollarla ünvanlana bilər: layihə müddətində qadın təşkilatları ilə məsləhətləşmələrin aparılmasının təmin olunması, layihənin qadınların bərabər səviyyədə iştirak etməsi üçün şərait yaratdığının əmin edilməsi, bütün tədbirlərdə gender perspektivlərinin işıqlandırılması, layihəyə gender perspektivləri/təhlillərin daxil edilməsi, ətraf mühit və təhlükəsizlik məsələləri və problemləri barədə qadınların fikir və mülahizələrinin öyrənilməsi və sair.

- Gənclərin rolu və iştirakı kəsişən mövzusu həmçinin aşağıdakı yollarla ünvanlana bilər: layihə müddətində gənclər təşkilatları ilə məsləhətləşmələrin aparılmasının/ onların cəlb olunmasının təmin olunması, gənclərin layihənin benefisiarları arasında əsas qrup kimi hədəfə alınması, ətraf mühit və təhlükəsizlik məsələləri və problemləri barədə gənclərin fikir və mülahizələrinin öyrənilməsi, müvafiq prioritet mövzu üzrə gənclərin maarifləndirilməsi və potensialının yaradılması üçün xüsusi tədbirlərin görülməsi və sair.

# Proqramda iştirak etməklə bağlı tələblər

## Müraciət etmək hüququ olan VCT-lər

Ölkədə fəaliyyət göstərən geniş spektrli Vətəndaş Cəmiyyəti Təşkilatları (VCT) TƏMVF Kiçik Qrantlar Proqramında iştirak etmək hüququna malikdirlər.

VCT üçün əsas iştirak meyarı onun gəlir əldə etmək və ya hakimiyyət güdmək məqsədi daşımayan qeyri-dövlət təşkilatı olmasıdır.

Bu kontekstdə, TƏMVF-Azərbaycan proqramı QHT-lər, icma əsaslı təşkilatlar, jurnalist birlikləri, həmkarlar ittifaqları və ticarət assosiasiyaları daxil olmaqla, lakin onlarla məhdudlaşdırılmadan, vətəndaş cəmiyyətinin geniş spektrli rəsmi və qeyri-rəsmi (qeydiyyatdan keçmiş və ya keçməmiş) təşkilatlarının müraciətlərinə açıqdır.

Lakin, yuxarıda göstərilən ümumi meyarlarla yanaşı aşağıda göstərilən məqamlar da nəzərə alınmalıdır:

- Fərdi (rəsmi/qeydiyyata alınmış) VCT-lər üçün çətir rolunu oynayan, qanuni surətdə qeydiyyatdan keçməmiş VCT-lər (məsələn, "platformalar" və ya "vətəndaş təşəbbüsləri") "hüquqi şəxsiyyətə" malik olmamaları səbəbindən müvafiq konsepsiya sənədləri qanuni surətdə qeydiyyatdan keçmiş münasib VCT tərəfindən bütün platformanın razılığı və onun adından təqdim olunmalıdır;

- Yerli və milli VCT-lər ilə yanaşı, beynəlxalq səviyyədə tanınmış VCT-lər ilə tərəfdaşlıq da həvəsləndirilir. Digər tərəfdən belə VCT (xüsusilə beynəlxalq VCT-lərin yerli filiallarının) aparıcı təsisat və/və ya birbaşa benefisiar kimi deyil, dəstəkləyici tərəfdaş kimi cəlb oluna bilərlər;

- Potensial maraq toqquşmasından yayınmaq üçün, ümumi iştirak tələblərinə cavab verməsinə baxmayaraq, TƏMVF Milli Seçim Şurasının üzvü olan VCT-lərin müraciətləri qəbul olunmayacaqdır.

## Sənədlər Paketinə olan tələblər

TƏMVF-Azərbaycan proqramına təqdim edilən sənədlər paketi aşağıda göstərilən tələblərə cavab verməlidir. Sənədlər Paketi:

- Kiçik qrantlar üçün müəyyən edilmiş pirotet mövzulardan birini əhatə edir;

[1] Gender aspektinin inteqrasiya edilməsi haqqında ətraflı məlumatı ATƏT-in "Gender və ətraf mühit" vəsaitindən əldə etmək olar: http://www.osce.org/gender/36360

- mahiyyət etibarı ilə aşağıda göstərilən layihə tiplərinin biri və ya bir neçəsinin birləşməsidir: "nümayiş layihəsi", "bilik və bacarıqların artırılması və şəbəkələndirmə layihəsi", "maarifləndirmə layihəsi", "öyrənilmiş dərslərin paylaşılması layihəsi" and "siyasi dialoq layihəsi";
- spesifik fəaliyyət sahəsində Azərbaycan hökumətinin müvafiq siyasətinə uyğundur və/və ya onu tamamlayır;
- yerinə yetirilməkdə olan digər layihələri təkrarlamır. Xüsusilə də, əvvəllər bu kimi qrant proqramlarının dəstəkləmiş olduğu (və ya dəstəklənməsi nəzərdən keçirilən) layihələr proqramda iştirak edə bilməz;
- dayanıqlığın təmin olunması üçün vacib olan vasitələr və mexanizmlər göstərilmişdir.

# Sənədlər Paketi

Konsepsiya Sənədlərinin Qəbulunda iştirak etməkdə maraqlı olan VCT-lər aşağıda göstərilən sənədlərdən ibarət Sənədlər Paketini Azərbaycan dilində təqdim etməlidirlər:

(1) Konsepsiya Sənədi Formasından (Əlavə 1) istifadə etməklə hazırlanmış Konsepsiya Sənədi;

(2) Büdcə Formatindan (Əlavə 2) istifadə etməklə hazırlanmış Büdcə;

(3) Tamamlanmış və imzalanmış Uyğunluq Şəhadətnaməsi (Əlavə 3);

(4) Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;

(5) Menecment heyətinin siyahısı;

(6) Dəstək məktubu(ları) (əgər müvafiqdirsə). Layihə digər təşkilatlarla tərəfdaşlığa əsaslanırsa bunu əks etdirən yazılı dəstək məktubu bütün layihə tərəfdaşlarından əldə edilməlidir.

## (1) Konsepsiya Sənədi

Konsepsiya Sənədi düzgün qiymətləndirməyə şərait yaratmaq üçün diqqətlə və aydın hazırlanmalıdır. Konsepsiya Sənədi Formasını (Əlavə 1) doldurarkən aşağıdakı format tələblərini gözləməyinizi xahiş edirik:

- **Konsepsiya sənədi dörd səhifədən (4) artıq olmamalıdır**
- Sətirlər arası məsafə tək olmalıdır
- Şriftin ölçüsü 10
- Arial şrifti

## (2) Büdcə

Layihənin büdcəsində (Əlavə 2) qiymətlər **Azərbaycan Manatı (AZN)** ilə göstərilməlidir. Büdcə məqsədlərə və gözlənilən nəticələrə nail olunması üçün adekvat olmalı, büdcə bəndləri və smeta nəzərdə tutulan fəaliyyətlər baxımından realistik olmalı və təklif edilən xərclər dolayı institusional xərcləri ilə deyil, başlıca olaraq layihənin məzmunu ilə əlaqəli olmalıdır.

Hər büdcə bəndini təfsilatı ilə göstərin. Məsələn, ekspertlərin sayı vurulsun iş günlərin sayı vurulsun gündəlik qonorar (1 ekspert x 3 gün x qonorar).

Əmək haqları ilə bağlı büdcə bəndində layihə işçilərinin hər biri üçün vergi nəzərə alınmaqla ümumi rəqəm göstərilməlidir; hər bir işçi üçün vaxtının neçə faizini layihə üçün çalışacağını qeyd edilməlidir.

Müraciət edən təşkilatlar gündəlik fəaliyyətlərinə dəstək üçün dəyəri 250 Avrodan (AZN ekvivalentində) az olan əmlakın alınmasını büdcədə qeyd edə bilərlər.

Layihənin başlanğıcında bütün xərcləri proqnozlaşdırmaq mümkün olmadığından donora gözlənilməz xərclər üçün vəsaitin büdcəyə salınmasını təklif etmək məqbuldur. Əgər donor gözlənilməz xərclər üçün təklif edilən vəsaiti büdcədə təsdiq edərsə həmin vəsaiti xərcləməzdən öncə donordan yazılı razılığın alınması lazım olacaqdır.

**(3) Uyğunluq Şəhadətnaməsi**

Uyğunluq Şəhadətnaməsi (Əlavə 3) əlavədəki formata uyğun olmalı, tamamlanmalı və imzalanmalıdır.

**(4-6) Əlavə sənədlər**

Konsepsiya sənədi, büdcə və uyğunluq şəhadətnaməsindən əlavə, müraciət edən təşkilatlar Sənədlər Paketində aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;
- Menecment heyətinin siyahısı;
- Dəstək məktubu(ları). Layihə digər təşkilatlarla tərəfdaşlığa əsaslanırsa bunu əks etdirən yazılı dəstək məktubu bütün layihə tərəfdaşlarından əldə edilməlidir.

# Sənədlər Paketinin təqdim edilməsi qaydası

Konsepsiya sənədi, büdcə, uyğunluq şəhadətnaməsi və digər əlavə sənədlərdən ibarət Sənədlər Paketi üzərində "No. ITB/AZE/002/2012 – TƏMVF üçün Konsepsiya Sənədi 28 fevral 2012-ci il, 12:00-dan (yerli vaxt) əvvəl açmayın)" yazılmış və möhürlənmiş zərfdə sənədlərin qəbulu üçün müəyyən edilmiş son tarixdən əvvəl aşağıdakı ünvana təqdim edilməlidir:

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT)
Bakı Ofisi
Maliyyə-İnzibati şöbə
Landmark III, 2-ci mərtəbə, Nizami küç. 96
AZ1010 Bakı, Azərbaycan

Zərfin üzərində müraciət edən təşkilatın tam adı və ünvanı göstərilməlidir. Əlaqə məlumatının və elektron poçt ünvanının dəqiq verilməsi müracit edən təşkilatın marağındadır.

Sənədlər Paketi poçtla və ya şəxsən təqdim edilməlidir. Faks və ya elektron poçtla göndərilən layihə təklifləri qəbul edilməyəcəkdir.

# Sənədlər Paketinə baxılması və seçim prosesi

Qrantların verilməsi haqqında qərar aşağıdakı dörd mərhələyə uyğun olaraq veriləcəkdir:

**Sənədlər Paketlərinin tələblərə uyğunluğunun daxili yoxlanılması**

İlkin olaraq, Sənədlər Paketləri ATƏT-in Bakı Ofisi tərəfindən proqramda iştirak tələblərinə uyğunluğu və TƏMVF prioritet mövzularına müvafiqliyi baxımından yoxlanacaqdır. İştirak tələblərinə cavab verməyən Sənədlər Paketləri avtomatik olaraq kənarlaşdırılacaqdır. Sənədlər Paketləri həmçinin aşağıdakı hallarda dərhal kənarlaşdırılacaqdır:

- sənədlər paketi son tarixdən sonra təqdim edilmişdir;
- büdcə qrant üçün müəyyən edilmiş maksimum məbləğə uyğun deyil;
- konsepsiya sənədi Azərbaycan dilində və konspesiya sənədi formatından istifadə etmələ hazırlanmayıb;
- büdcə lazımi formatda təqdim edilməyib;
- uyğunluq şəhadətnaməsi təqdim edilməyib;
- digər tələb olunan sənədlər təqdim edilməyib.

**Tələblərə cavab verən Sənədlər Paketlərinin qiymətləndirilməsi**

İkincisi, tələblərə cavab verən Sənədlər Paketlərinə TƏMVF Azərbaycan Milli Seçim Şurası (MSŞ) tərəfindən baxılacaq və qiymətləndiriləcəkdir. MSŞ Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP), ATƏT-in Bakı Ofisi və vətəndaş cəmiyyəti təşkilatı nümayəndələrindən ibarətdir. MSŞ-sı aşağıda verilən meyarlar əsasında Sənədlər Paketlərini qiymətləndirəcəkdir. Bundan əlavə, MSŞ-sı Sənədlər Paketlərini müzakirə edərək qısa siyahıya salınacaq təşkilatları müəyyən edəcəkdir.

Cəmi (100 xal)
(1) Konsepsiya Sənədi
- Təşkilat haqqında məlumat (5 xal)
- Layihənin əsaslandırılması (20 xal)
- Layihənin məqsədi və nəticələri (20 xal)
- Layihənin faydalananları (10 xal)
- Fəaliyyətlər (20 xal)
- Tərəfdaşlıq (10 xal)
- Dayanıqlıq (10 xal)

(2) Büdcə (5 xal)

Tələb edilən digər əlavə sənədlər xallarla qiymətləndirilməyəcəkdir.

**Tam layihə təlkiflərinin hazırlanması və seçimi**
Üçüncüsü, MSŞ adından və MSŞ-nın qısa siyahısı əsasında, ATƏT-in Bakı Ofisi qısa siyahıya salınmış təşkilatları tam layihə təklifini MSŞ-ya təqdim etməyə dəvət edəcəkdir.

Dördüncüsü, bu layihə təkliflərinə MSŞ tərəfindən yenidən baxılacaq və seçim ediləcəkdir.

Veriləcək qrantların sayı mövcud maliyyə vəziyyətindən asılı olacaqdır.

Müraciət etmiş bütün təşkilatlara seçim prosesinin nəticələri haqqında məlumat veriləcəkdir.

## Konsepsiya sənədlərinin və layihə təkliflərinin hazırlanmasına texniki yardım

TƏMVF Proqramının bacarıqların artırılması komponentinin bir hissəsi kimi, ATƏT-in Bakı Ofisi qrant üçün müraciət edən VCT-lərə, əgər xahiş olunarsa, onların Sənədlər Paketinin və layihə təkliflərinin hazırlanmasında təlimat və texniki yardım göstərəcəkdir. Lakin bu cür yardım və təlimat müvafiq konsepsiya sənədinin və ya layihə təklifinin MSŞ tərəfindən seçilməsinə zəmanət vermir.

TƏMVF-Azərbaycan Kiçik Qrantlar Proqramı ilə bağlı suallar və təlimat üçün ATƏT-in Bakı Ofisinin İqtisadi və Ətraf Mühit şöbəsinin əməkdaşı Zəhra Əhmədova ilə zahra.ahmadova@osce.org elektron poçtu vasitəsilə konsepsiya sənədlərinin qəbulu üçün müəyyən edilən son tarixdən öncə əlaqə saxlaya bilərsiniz.

## Kontrol siyahı

Müraciətinizi göndərməzdən öncə bütün lazımi sənədləri təqdim etdiyinizə əmin olun:

(1) Möhürlənmiş konsepsiya sənədi
(2) Möhürlənmiş büdcə;
(3) Möhürlənmiş və imzalanmış Uyğunluq Şəhadətnaməsi;
(4) Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;
(5) Menecment heyətinin siyahısı;
(6) Dəstək məktubu(ları) (əgər müvafiqdirsə).